# Uğurla başa çatan görüş

**_Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilən görüş beynəlxalq, regional və yerli medianın gündəliyində özünəməxsus yer tutur. Bu, Brüssel sülh gündəliyinin təşəkkülü, müəyyənləşməsi və perspektiv vəd etməsi ilə sıx bağlıdır._**



Bu formatda ilk üçtərəfli görüş ötən il – dekabrın 14-də keçirilmişdi. Nəticə etibarilə, Azərbaycan Prezidenti və Aİ Şurasının prezidenti tərəfindən Brüssel sülh gündəliyi formalaşdırılmışdır. Əgər qarşılıqlı güvən, perspektivə inam və imza qədər etibar qazanmış sözlər olmasaydı, ötənilki 14 dekabr elə həmin 14 dekabrda, Brüssel Brüsseldə qalacaqdı. İndi isə obrazlı desək, dekabr aprelə, Brüssel bütün regiona daşınıb... Yəni Brüssel sülh gündəliyi öz işlək mexanizmlərini işə salmaqdadır.

Budur, 6 apreldə üçtərəfli əsasda 5 saata yaxın davam edən görüş 14 dekabrın təsbiti, keçən müddətin analizi və bundan sonranın yol xəritəsini cızdı.

Görüşün nəticəsi olaraq Şarl Mişelin verdiyi Bəyanatda təsbit edildi ki, Ermənistanla Azərbaycan arasında Sülh müqaviləsi üzrə danışıqlar başlayır. İki ölkənin xarici işlər nazirliklərinə uyğun təlimatlar verildi. Bu, məhz Azərbaycan Respublikasının irəli sürdüyü məlum 5 maddəlik təklifin qəbulu və bunun əsasında danışıqların aparılmasını ifadə edir. Və sənəddə bizim üçün ən əsas məqam ölkəmizin ərazi bütövlüyü, Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklif və bunun əsasında predmetli danışıqların aparılmasıdır. Tərəflərin sərhəd məsələləri üzrə birgə komissiya yaratması, birinci növbədə sərhədlərin delimitasiya prosesinə başlaması barədə razılıq əldə olunub.

Avropa İttifaqının minalardan təmizləmə, itkin düşmüş şəxslərin tapılması, eləcə də quruculuq işlərində Azərbaycana dəstək göstərməsi də razılaşmada öz əksini tapıb. Nəqliyyat-kommunikasiya xətlərinin bərpası və qurulması, dəmir yolu və avtomobil yolunun çəkilməsi, İqtisadi Məşvərət Şurası mexanizminin yaradılması qərara alınıb.

Sənəddə “Dağlıq Qarabağ” ifadəsi və ya keçmişin qalığı olan ATƏT-in Minsk qrupu (MQ) həmsədrlik institutuna istinad da yoxdur. Bu, göstərir ki, Avropa İttifaqı 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi reallığı qəbul edir və öz mövqeyində bu reallığa əsaslanır. Həmçinin, münaqişə həll olunduğuna görə, artıq Minsk qrupu lazımsız təsisata çevrilib, Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm və format yaranıb.

Avropa İttifaqı dünyada mövcud olan ən böyük siyasi və iqtisadi mərkəzlərdən biri olaraq, qərəzsiz və bitərəfdir, Azərbaycan və Ermənistan tərəfindən etimad göstərilir. Bu nüfuzlu təşkilatın məqsədi, ilk növbədə, Azərbaycan–Ermənistan münasibətlərinin normallaşdırılmasıdır. Son illər Azərbaycanla Aİ arasında münasibətlər yeni inkişaf səviyyəsinə çatıb. Bu qurumla enerji təhlükəsizliyinin təmin edilməsində ölkəmizin rolu daha da yüksəlib. Həmçinin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə Prezident İlham Əliyev arasında intensiv dialoq və təmaslar artıb. Bunlar iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində müvafiq mexanizmin formalaşması və predmetli danışıqlara başlanması, sülh müqaviləsi, sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması kimi məsələlərin həlli istiqamətində əməli addımlar atılması üçün mühüm şərtdir.

Şarl Mişel İlham Əliyevin regional liderliyini nəinki qəbul edir, hətta dövlət başçımızla yaxın təmasları Cənubi Qafqaz regionunda sülh və sabitliyin bərqərar olmasında mühüm amil kimi görür. Son iki ayda Azərbaycan Prezidenti ilə dünya liderləri, dövlət və hökumət başçıları arasındakı dialoq, telefon danışıqları dövlət başçımızın dünyada böyük nüfuzunun göstəricisidir.

Bütün bunlarla bərabər, onu da qeyd edək ki, Ermənistan 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatla üzərinə müəyyən öhdəliklər götürsə də, qarşıya qoyulan vəzifələri yerinə yetirməkdən müxtəlif bəhanələrlə yayınıb. Ermənistan ordusu Qarabağı tam tərk etməyib, hətta həmin yerlərdə mövqeləri möhkəmləndirmək üçün vaxtaşırı istehkamların tikintisini aparıb, yeri gəldikcə təxribatlar törədib. Zəngəzur dəhlizini Azərbaycana qarşı siyasi şantaj alətinə çevirməyə cəhdlər edib...

İndi isə vəziyyət kökündən dəyişib. Görüşün nəticəsi olaraq Şarl Mişelin verdiyi bəyanatda Ermənistanla Azərbaycanın sərhəd məsələləri üzrə birgə komissiya yaratması, ilk növbədə delimitasiya prosesinə başlaması istiqamətində razılığın əldə olunduğu ifadə edilir. Yəni ki, delimitasiyanın nəticəsi olaraq sərhəddə gərginlik aradan qaldırılır. Aİ-nin minalardan təmizləmə, itkin düşmüş şəxslərin tapılması, eləcə də quruculuq işlərində Azərbaycana dəstək göstərməsi də sənəddə göstərilir. Ayrıca, nəqliyyat-kommunikasiya xətləri də – dəmir yolu ilə birlikdə avtomobil yolunun çəkilməsi və iqtisadi məşvərət şurası mexanizminin yaradılması təsdiq olunur. Sənəddə “Dağlıq Qarabağ” ifadəsi və haqlı olaraq “keçmişin qalığı” sayılan “Minsk qrupu həmsədrlik institutu”na birmənalı istinad yoxdur.

Aİ-nin dəstəyi ilə Ermənistan və Azərbaycan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm, yeni format yaranır. Aydındır ki, bunun məqsədi ilk növbədə Ermənistanla Azərbaycan arasındakı münasibətlərin normallaşdırılmasıdır. Doğrudur, belə bir normallaşdırma bütün regiona, Azərbaycana, qonşularımıza, dostlarımıza da lazımdır, lakin bu ilk növbədə Ermənistana lazımdır. Uğursuz dövlətin hərbi-siyasi rəhbərliyi bu həqiqəti nə qədər tez dərk və qəbul etsə, bu, ilk növbədə onların özü üçün faydalı olacaq. Sülh prosesini sabotaj etmək isə, ilk növbədə Ermənistanın öz dövlətçiliyinə, sabitliyinə və iqtisadiyyatına təsir edəcək. İndi gedişat elədir ki, Ermənistan öz rəhbərinin imzasına saygı duysa da, duymasa da, Paşinyan Brüssel razılaşmasına sadiq qalsa da, qalmasa da, Ermənistan çox təsirlənəcək. Buyursunlar, ya irəli dursunlar ya geri. Yerində saymaq olmaz...

Brüssel görüşü Ermənistanda təlaş yaratasa da, Azərbaycan Prezidentinin növbəti uğuru kimi başa çatdı. Dövlət başçımız bir daha sülh tərəfdarı, dinc yanaşı yaşama mövqeyində olduğunu beynəlxalq müstəvidə sübut etdi.

**_Qənirə PAŞAYEVA,_**
**_Milli Məclisin Mədəniyyət Komitəsinin sədri_**